www.525.az Facebook.com/525-ci qəzet - 525.az İnstagr




# Daha bir "Fokus"

Mədəniyyət Nazirliyi və Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) maliyyə dəstəyilə "Fokus" analitik kino jurnalının 12-ci nömrəsi işıq üzü görüb.

AKİ-dən AZƏRTAC-a verilən məlumata görə, bu, peşəkar və tələbə kinematoqrafçıların nüfuzunu qazanmış, regionda yeganə analitik kino jurnalıdır.

Jurnalın daimi müəllifləri arasında Aygün Aslanlı, Aliyə Dadaşova, Sevda Sultanova və Nadir Bədəlov kimi tanınmış imzalar var. Müəlliflər sırasına sənətşünaslıq elmləri namizədi, kinoşünas Əlisəfdər Hüseynov da daxil olub və müəllif heyətinin genişləndirilməsi qarşıda duran əsas məqsədlərdəndir. Kinoşünaslığın inkişafı, kinoşünas kadrların hazırlanması istiqamətində "Fokus" kino jurnalı uğurlu bir platformadır. Azərbaycan Kinematoqrafçılar İttifaqının kinoyazar.az saytı bu məqsədlə yaradılmış layihələrdəndir.

Jurnalın bu nömrəsinin də məqalələri ana mövzu ətrafında formalaşıb. Jurnalda Georgi Ovaşvili, Dərviş Zaim, Semih Kaplanoğlu, Elçin Musaoğlu kimi tanınmış kinorejissorlarla eksklüziv müsahibələr də yer alıb. Bundan başqa Şahanə Ürfan, Aygün Aslanlı, Əlisəfdər Hüseynov və Nadir Bədəlov poetik kino ənənələrini milli və dünya kinosu nümunələrində analiz edirlər. Tod Filds, Ruben Estlund kimi kinematoqrafçıların yaradıcılığı da jurnalın fokusundadır. Sevda Sultanova Oktay Mirqasımovun yaradıcılığını, Lamiyə Abbas Tengiz Abuladzenin yaradıcılığını təhlil edən məqalələrlə çıxış ediblər. Hilal Baydarovun beynəlxalq kino festivallarının iştirakçısı olmuş "Balıqlara xütbə" bədii filmini Aliyə Dadaşova analiz edib.

Qeyd edək ki, jurnal iyulun 10-dan "Libraff" kitab mağazaları şəbəkəsində satışa çıxacaq. Kinematoqrafçı tələbələr isə AKİ-nin ofisindən jurnalı pulsuz əldə edə bilərlər.